## SUMQAYIT ŞƏHƏRİNİN ÜMUMCOĞRAFİ SƏCİYYƏSİ

**Həsənov O.T.**

*Bakı Dövlət Universiteti*

*oruchsnli4@gmail.com*

Sumqayıt şəhəri Xəzər dənizinin qərb sahillərinin 32 kilometrlik boyunca düzənlik sahədə yerləşib. Şəhərin ərazisi 9495 hektar təşkil edir. Sumqayıtın iqlimi quru və isti, torpağı boz-qonur və yarımsəhradır. Sumqayıt şəhərində havanın ən yüksək temperaturu +40° (avqust ayında qeydə alınmışdır), ən aşağı temperatur isə -13° (yanvar ayında qeydə alınmışdır). Burada havanın illik orta tempera-turu +14,4° təşkil edir. Yay fəsli zamanlarında torpağın səthinin temperaturu +60°-yə qədər çatır. Quraqlıq dövrü əsasən yaz və yay aylarında müşahidə olunur. Yağıntılı günlər isə əsasən payız və qış mövsümlərində olur. Rayon ərazisində cənub küləyi az, şimal küləyi isə çox müşahidə edilir. İl ərzində küləkli günlərin sayı 200-ə çatmaqdadır. Küləyin sürəti isə 5-20 m/san aralığında dəyişir.

Sumqayıt şəhəri ərazisindən Sumqayıt çayı axır. Bu çay suyunu dənizə çatdıra bilmir. Buna səbəb olaraq isə yarımsəhra və qumluq zonalarda suyun süzülməsi hadisəsidir. Çayın əsas qida mənbəyi isə yağış suları, az miqdarda qar və yeraltı sulardır. Sumqayıt çayının ən böyük qolu isə Qozlu çayıdır. Bu çay mənbəyini Dübrar dağından götürür.

Şəhərin cənub hissəsindən «Samur-Abşeron» kanalı keçir. Kanalın suyu Ceyranbatan su anbarına tökülür. Həmişə quru olan bu çay, yalnız aprel və may aylarında güclü küləkdən sonra su ilə dolmağa başlayır. Sumqayıt rayonu ərazisində bitki örtüyü əsasən yarımsəhra xarakterli bataqlıq otu və yovşandan ibarətdir. Şəhər kənarı ərazilərdə çöl heyvanları çaqqal, tülkü, dovşan, quşlardan isə ördək, göyərçin və s.saxlanılır. Şəhər əsasən insanların qayğılı əlləri ilə salınmış parklarla əhatə olunur.

Sumqayıt şəhərinin tarixi xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. XX əsrin 70-80-cı illərində Sumqayıt şəhərində neft və kimya sənayesində geniş imkanlar yaradılaraq, o zamanın tələblərinə uyğun texnologiyalar əsasında yeni istehsal sahələri istismara verilmişdir. Respubilkamızda dövlət müstəqilliyi bərpa olunduqdan sonra Sumqayıt şəhəri uğurlu nailiyyətlər əldə etdi. Artıq şəhərdə sənaye yönümlü müasir müəssisələr fəaliyyət göstərməkdədir. Dövlət proqramları və infrasturuktur layihələri çərçivəsində "Sumqayıt Texnologiyalar Parkı" və "Sumqayıt Kimya Sənaye Parkı", həmçinin başqa mühüm obyektlər yaradılıb. Bunun nəticəsində də şəhər əhalisinin yaşayış səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlmişdir.